**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ OMBUDSMAN FƏALİYYƏTİ HAQQINDA HESABAT**

22.05.2018-ci il tarixdə Avropa Kommissyasının Erasmus+ proqramının "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" (AESOP) layihəsi çərçivəsində Gəncə Dövlət Universitetində Ombudsman Mərkəzinin rəsmi açılışı olmuşdur. Mərkəzin açılışından bu günə qədər tələbə və müəllimlərlə Omudsmanın fəaliyyəti istiqamətində görüşlər keçirilmiş, münaqişələrin həlli istiqamətində ombudsmana müraciət üsul və vasitəsi, həmçinin hansı hallarda ona müraciət etmək haqqında təlimlər keçirilimişdir. Bundan başqa universitetdə ombudsmanın fəaliyyətinin təsirini ölçmək məqsədi ilə sorğular aparılmışdır. Problemlərin tələbələr üçün rahat mühitdə həll olunması üçün şərait yaradılmış, fakültələrdə fərdi görüşlər keçirilmiş, tyutorlarla söhbətlər aparılmışdır.

Gəncə Dövlət Universitetində fəaliyyət göstərən Ombudsman Mərkəzinə ilk gündən hesabat dövrünə qədər 21 mübahisə üzrə müraciətlər daxil olmuşdur. Qeyd olunan müraciətləri xarakter etibari ilə aşağıdakı kimi analiz etmək olar:

1. İnzibati idarəetmə ilə əlaqədar
2. Sənədlərin gecikdirilməsi ilə əlaqədar
3. İmtahan nəticələri ilə əlaqədar
4. İndividual münaqişələr

Yuxarıda qeyd olunan müraciətləri demoqrafik olaraq müqayisə etsək həmin müraciətlərdən 13 qadın, 8 kişi, 15 bakalavr, 3 magistr, 3 doktorant tələbələr üzrə ombudsmana müraciət qeydə alınmışdır.

Ombudsmana müraciətlərin böyük hissəsini, yəni 8 müraciət tələbələrin şəxsi məlumatları əsasında olan müraciətlər, 2 kollektiv tərəfindən tövsiyyə formasında edilən müraciətlər, 7 tələbə yoldaşları tərəfindən istiqamətləndirilən müraciətlər, 4 internet və poçt vasitəsi ilə edilən müraciətlərdən ibarət olmuşdur.

Qeyd olunan formada daxil olan münaqişələrin həlli ombudsman tərəfindən 1 gün və ya 2 həftə arasında öz həllini tapmışdır.

Baş vermiş mübahisələr üzrə 18 iş öz həllini tapmış, 3 iş üzrə razılığa gəlinmədiyi üçün həll olunmadan qalmışdır. Həll olunmayan müracətlərin əsas səbəbi ondan ibarətdir ki, tərəflər arasında razılıq əldə edilməmiş və ya predmet əsassız olmuşdur.

Müraciətlərin həlli istiqamətində aparılan araşdırılmalarda qarşıya çıxan çətinliklər əsas səbəbi ondan ibarət olmuşdur ki, yaradılmış mərkəz nisbətən yenidir və inam yaratmaq müəyyən vaxt tələb edir.

Problemlərin həlli istiqamətində tələbələr başlanğıcda şübhəli və tərəddüdlü olsalar da hal-hazırda mərkəz geniş əhatəyə malikdir.

*Rəşad İsgəndərov*
*Gəncə Dövlət Universitetinin Ombudsmanı*
*Heydər Əliyev prospekti., 429*
*Gəncə, Azərbaycan, AZ2000*
*ombudsman@gdu.edu.az    +99455 656 8481*

**Fəragətnamə: Avropa Komissiyasının bu nəşrin hazırlanması üzrə dəstəyi yalnız yazarların fikirlərini əks etdirən məzmunun təsdiq edilməsini təşkil etmir və Komissiya orada olan məlumatlardan istifadə halları üçün məsuliyyət daşımır.**